

## SEVİL ƏLİMUXTARQIZI

### DÜNYAMIZ AYRI

Biz ayrı dünyada qalmışıq indi,
Sehirli yuxuya dalmışıq indi,
Yolu xəyallardan salmışıq indi -
Sən ayrı mən ayrı dünyamız ayrı.

Apardım nağıllı dünyama səni
Ətirli, çiçəkli röyama səni,
Apardım uzağa xülyama səni -
Sən ayrı mən ayrı dünyamız ayrı.

Qınamır bil daha ürəyim səni,
İstəmirəm daha diləyim səni,
Görmürəm özümə gərəyim səni -
Sən ayrı mən ayrı dünyamız ayrı.

Sarı simdə qalıb, çalınmır sazım,
Sevilən, yoruldum gəlmir avazım,
Hər gün səndən ayrı yazılır yazım -
Sən ayrı mən ayrı dünyamız ayrı...

### YOLUMU KƏSİB

Simurq lələyini tapa bilmədim,
Yandırıb mən sənə çata bilmədim;
Dərdini sevincə qata bilmədim,
Ayrılıq sədd çəkib yolumu kəsdi.

Bilmirəm nə idi mənimlə qəsdi,
Qarlı çovğun, boran yolumu kəsdi;
Ey divanə könlüm, gözləmə, bəsdi,
Ayrılıq sədd çəkib yolumu kəsdi.

Vermə günlərimi, vermə sən bada,
Qəlbi möhtac etmə düşmənə, yada;
Mən sadiq qaldıqca o böyük ada,
Ayrılıq sədd çəkib yolumu kəsdi.

Nə qədər daş qəlbli olmusan belə,
Sancıb ürəyimdən atmısan selə;
Mən sinə gərdikcə əsən hər yelə
Ayrılıq sədd çəkib yolumu kəsdi.

Son qoy bu həsrətə, hicrana bəsdi,
Sevil, könlündəki bu nə həvəsdi;
Vaxtsız gələn tufan başında əsdi,
Ayrılıq sədd çəkib yolumu kəsdi...

### KÖZLƏ OYNAMA

Yalan vədə verib sözlə oynama,
Qınında gizlənib gözlə oynama;
Olanlar geridə qaldı qayıtmaz,
Ocağı söndürüb közlə oynama...

Hər zaman acıdır bir sözün düzü,
Mərd kimi qalmayır namərdin izi;
Köç edib bu fani dünyadan yüzü,
Ocağı söndürüb közlə oynama...

Ala gözlərindən qalmaz bir nişan,
Qəlbini incidib eyləmə şan-şan;
Baxıb bu dünyaya olma pərişan,
Ocağı söndürüb közlə oynama...

Gizləmə ürəkdə olan dərd-qəmi,
Hər dərdin, inan ki, vardır məlhəmi;
Əgər vəfasızsa könül həmdəmi,
Ocağı söndürüb közlə oynama...

Görəndə sən məni yolda dayanma,
O gözəl günləri bir daha anma;
Bu qəlb sənin deyil, özünki sanma,
Ocağı söndürüb közlə oynama...